Azərbaycan.-2023.- 1 noyabr, № 239.- S.12.

# "Dünyanın tanıdığı İlham Əliyev" adlı kitabın Ağdamda təqdimatı olub









Ağdam rayon Quzanlı qəsəbəsində Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun "Dünyanın tanıdığı İlham Əliyev" adlı kitabının təqdimatı olub.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Əməkdar artist Azad Şükürovun moderatorluğu ilə keçən tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Mansur Quliyev, "Ağdam" qəzetinin redaktoru Baxşeyiş Abbasoğlu, rayon ziyalısı Elmira Şükürova və başqaları çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizin qazandığı nailiyyətlərdən və tarixi qələbələrdən danışıb, Azərbaycanın qalibiyyət tarixinin geniş təhlil edildiyi və Zəfər silsiləsində nəşr olunan "Dünyanın tanıdığı İlham Əliyev", "Xilaskar İlham Əliyev", "İlham Əliyev öndədir" adlı kitabların əhəmiyyətindən bəhs ediblər.

Bildirilib ki, "Dünyanın tanıdığı İlham Əliyev" kitabında Prezident İlham Əliyevin dövlətə rəhbərliyinin 20 ili ərzində ölkəmiz və dünya üçün gördüyü möhtəşəm işlərdən bəhs olunur. Dörd fəsildən ibarət kitab həm də ötən 20 ildə ölkəmizdə aparılan inkişaf və quruculuq strategiyasının, həmçinin Azərbaycan Ordusunun Müzəffər Komandanı, Prezident İlham Əliyevin Böyük Qələbəyə aparan siyasətinin yığcam salnaməsidir.